## *MƏKTƏB VƏ PEDAQOJİ FİKİR TARİXİ*

UOT 37.

***İradə Böyükağa qızı Əmirəliyeva***
*ARTİ-nin aparıcı elmi işçisi*
*pedaqogika üzrə fəlsəfə doktoru,*

# "KİTABİ-DƏDƏ QORQUD"DA TƏRBİYƏ MƏSƏLƏLƏRİ

***Ирада Беюкага гызы Амиралиева***
*ведущий научный сотрудник*
*Института Образования Азербайджанской Республики,*
*доктор философии по педагогике*

# ВОПРОСЫ ВОСПИТАНИЯ В "КИТАБИ-ДЕДЕ ГОРГУД"

***Irada Boyukagha Amiraliyeva***
*leading researcher of the İnstitute of Education of the Rupublic of Azerbaijan,*
*PhD in Pedagogy*

# ISSUES OF UPBRINGING IN "KITABI-DEDE GORGUD"

**Xülasə:** Məqalədə "Kitabi-Dədə Qorqud"da tərbiyə, xüsusən mənəvi tərbiyə məsələləri diqqət mərkəzinə gətirilir. Mənəvi tərbiyənin bir sıra tərkib hissələrinə dair nümunələr gətirilir. Ailə tərbiyəsi, qızın tərbiyəsində – ananın, oğulun tərbiyəsində – atanın rolu qeyd olunur. Dastana əsasən, təkəbbürlük, lovğalıq, tənbəllik, özünü öymək, namərdlik, yalançılıq tənqid olunur. Düzlük və doğruçuluq təqdir olunur, qonaqpərvərlik müsbət cəhət kimi dəyərləndirilir.

***Açar sözlər***: *tərbiyəyə dair fikirlər, uşaqların tərbiyəsi, mənəvi tərbiyə, təhsilləndirici, tərbiyələndirici və inkişafetdirici imkanlar*

**Резюме:** Статья посвящена вопросам воспитания, особенно нравственного воспитания, представленных в "Китаби-Деде Горгуд". Приводится ряд примеров компонентов нравственного воспитания. Отмечается роль отца в воспитании сына, роль матери в воспитании дочери. Согласно эпосу критикуются высокомерие, гордость, лень, трусость и ложь. Порядочность и честность восхваляются, а гостеприимство рассматривается как положительная черта.

***Ключевые слова***: *мысли о воспитании, воспитание детей, нравственное воспитание, образовательные, воспитательные и развивающие возможности*

**Summary:** The article is devoted to the issues of moral upbringing presented in "Kitabi-Dede Gorgud". Some examples of the components of moral upbringing are given. The role of the father in the upbringing of the son and the role of the mother in the upbringing of the daughter are noted. According to this epic, arrogance, pride, laziness, cowardice and deceitfulness are criticized. Honesty and decency are praised, and hospitality is seen as a positive feature.

***Key words:*** *thoughts about upbringing, education of children moral education, educational, upbringing and developing opportunities*

"Kitabi-Dədə Qorqud" Oğuz tayfalarının dilində Dədəm Qorqudun kitabı adlanır. Bu dastanı Azərbaycan xalq ədəbiyyatının çox qədim yazılı abidəsi (XI-XII əsrlər) hesab edilir.

Dədə Qorqudun həzrəti Məhəmməd peyğəmbərin müasiri olduğu söylənilir. Deyilənə görə, türklər Dədə Qorqudu elçi kimi peyğəmbərimizin yanına göndəriblərmiş. Dədə Qorqudun Məhəmməd peyğəmbər dövründə yaşadığı dastanın müqəddimə hissəsində də xüsusi göstərilmişdir.

"Kitabi-Dədə Qorqud" zəngin təhsilləndirici, tərbiyələndirici və inkişafetdirici imkanlara malik bir sənət abidəsidir. Bu möhtəşəm abidədən bəhrələnərək nəsillər təhsillənmiş, tərbiyələnmiş və inkişaf etmiş, Vətəni sevmək, igid, cəsur, qəhrəman, mərd, mübariz, ailəcanlı, yurdsevər, yenilməz, mətin, döyüşkən, qorxmaz olmaq kimi nəcib sifətlərə yiyələnmişlər.

Əhəmiyyəti, faydalılığı, müsbət təsir gücü nəzərə alınaraq ümumtəhsil məktəblərinin, demək olar ki, bütün siniflərində bu əsər haqqında məlumat verilir, boylarından nümunələr dərsliklərə salınaraq öyrənilir. Dastanla tanışlıq orta ixtisas və ali təhsil müəssisələrində də həyata keçirilir.

Dastana müraciət etməkdə məqsədimiz "Kitabi-Dədə Qorqud"da tərbiyə məsələlərini araşdırmaqdır.

Tərbiyəyə müxtəlif təriflər verirlər: “Tərbiyəçinin tərbiyə olunana məqsədyönlü təsiri”, ”uşaqda bu və ya digər keyfiyyəti (böyüyə hörmət, düzlük və doğruçuluq, vətənpərvərlik və s.) inkişaf etdirmək üçün ona göstərilən təsir”, “yaşlı nəslin qazandığı sosial təcrübənin gənc nəslə verilməsi” və s.

Həmin təriflər tərbiyə prosesinin mahiyyətini bu və ya digər dərəcədə açır. Bir qədər də dəqiq ifadə etməli olsaq, tərbiyəyə belə tərif verə bilərik: tərbiyə dedikdə, bu və digər keyfiyyəti inkişaf etdirmək, davranış təcrübəsini formalaşdırmaq üçün tərbiyəçinin (valideynin, müəllimin) tərbiyə olunana (uşağa, şagirdə) mütəşəkkil, məqsədyönlü, planlı, sistemli və fasiləsiz təsir göstərməsi prosesi başa düşülür. “Tərbiyə” sözü son dərəcə geniş anlayışdır. Çox zaman “təhsil” və “təlim” də onun tərkibində nəzərdən keçirilir, hətta pedaqogikaya tərif verərkən ona “tərbiyə” haqqında elm kimi yanaşırlar. Bu, görünür, təhsil və təlim anlayışlarına nisbətən tərbiyə anlayışının daha erkən meydana gəlməsi ilə bağlıdır. İlk insanlar məhz tərbiyə edə-edə övladlarına bilik, bacarıq, vərdişlər qazandırırdılar. İngilis dilində *education* sözü var. O, eyni zamanda həm tərbiyə, həm təhsil, təlim, maarif, həm də ən əsası, “pedaqogika” mənasını verir” (1, 227).

Tərbiyə geniş anlayışdır və bir sıra tərkib hissələrə ayrılır. Həmin tərkib hissələri diqqət mərkəzinə gətirək: əqli tərbiyə, mənəvi tərbiyə, əmək tərbiyəsi, estetik tərbiyə, fiziki mədəniyyətin formalaşdırılması, ekoloji tərbiyə, hüquq tərbiyəsi, iqtisadi tərbiyə. tərbiyənin bu tərkib hissələri ilə bağlı dastanda çoxsaylı nümunələr vardır.

Bir məsələni də qeyd edək: tərbiyənin tərkib hissələri sırasında mənəvi tərbiyə özünün məna tutumuna, məzmununun, məqsəd və vəzifələrinin genişliyinə və əhatəliliyinə görə fərqlənir. mənəvi tərbiyənin özünün bir çox tərkib hissələri, komponentləri vardır. onları göstərək: vətənpərvərlik tərbiyəsi, vətəndaşlıq tərbiyəsi, böyüyə hörmət tərbiyəsi, yoldaşlıq və dostluq tərbiyəsi, düzlük və doğruçuluq tərbiyəsi, insanpərvərlik tərbiyəsi, yaxşılıq, xeyirxahlıq və qayğıkeşlik tərbiyəsi, igidlik və qəhrəmanlıq tərbiyəsi, humanizm tərbiyəsi, prinsipiallıq tərbiyəsi, milli mənlik şüurunun formalaşdırılması, şərəf və ləyaqət tərbiyəsi, mübarizlik tərbiyəsi, dövlətçiliyə sədaqət tərbiyəsi və s.

Tərbiyənin tərkib hissələrinin hər biri üzərində dayanmaq imkan xaricində olduğundan yalnız "Kitabi-Dədə Qorqud" dastanında (2) mənəvi tərbiyə problrmlələrinə ayrılan yerə münasibət bildirəcəyik.

İlk növbədə qeyd olunmalıdır ki, ailə tərbiyəsi, ailədə uşaqların tərbiyəsi, ataya, anaya hörmətin göstərilməsi, valideynlərin məsələləri və s. dastanda özünəməxsus şəkildə öz ifadəsini tapmışdır. Ata adını ucaltmaq vacib hesab olunur. Bu, övladın ümdə vəzifəsi, borcu olmalıdır. Atanın ümidlərini doğrultmayan oğul fərsiz oğul hesab olunur, beləsinin mövcud olmasındansa, olmaması məsləhət bilinir. Dastanda oxuyuruq: “Ata adını ucaltmayan fərsiz oğul, ata belindən enincə, enməsə yaxşıdır, ana bətninə düşüncə, doğulmasa yaxşıdır” (2, 130).

Ona görə də “Kitabi-Dədə Qorqud"da xüsusi qeyd olunur ki: “Ata adını yaşatmaqçın ağıllı oğul” (2, 130) lazımdır.

Dastanda irəli sürülən belə bir fikir önəmlidir ki, övladlar valideynin, xüsusən atanın sözü, tapşırığı ilə oturub-durar, tapşırıqlarına əməl edər, onun sözünü eşidərdilər. bu da həyatın fərəhli yollarını onların qarşısında açar, yollarını açıq və uğurlu edər, onları xoşbəxtliyə çatdırardı. Bu xüsusda dastanda deyilir: “O zamanlar oğul ata sözünü iki eləməzdi. İki eləsəydi, o cür oğulu qəbul etməzdilər” (2, 169).

Dədə Qorqud ölümlü-itimli dünyada, müharibələrin tez-tez baş tutduğu illərdə yaşamışdı. Ona görə də qadın hamilə olanda arzu

edilərdi ki, dünyaya oğul gəlsin, ailəyə, yurd-yuvaya hayan doğulsun. Bu məntiq baxımından dastanda belə fikir özünə yer almışdır ki, "Ata oğul qazanar ad üçün, Oğul da qılınc qurşanar ata qeyrəti üçün" (2, 169).

"Kitabi-Dədə Qorqud"da qız və qadın tərbiyəsi məsələlərinə xüsusi diqqət yetirilir. Ailənin xanımına yüksək tələblər verilir. Qadını əsilli-köklü yerdən almağın zəruriliyi əsaslandırılır və bu xüsusda deyilir: "Qaravaşa don geydirsən də qadın olmaz" (2, 129).

"Kitabi-Dədə Qorqud"la tanışlıqdan görünür ki, ailədə qızın tərbiyəsində daha çox ana, oğulun tərbiyəsində - ata nümunəsinə önəm verilir: "Oğul atadan görməyincə süfrə çəkməz" (2, 129).

Qadından-anadan ağıl, dərrakə, iffət, ismət, şərəf, ağırləngərlik, ciddilik, ərə, ailəyə sədaqət, ev işlərini bacarmaq, ər qulluğunda durmaq, ilk növbədə qızına nümunə göstərmək və s. tələb olunur. Bildirilir ki, "Qız anadan görməyincə öyüd almaz" (2).

Dastanda ismət, namus qızlardan, qadınlardan ötrü son dərəcə mühüm, əvəzedilməz keyfiyyət kimi qiymətləndirilir. Ərə gedənə kimi pak, bakirə qalmaq, öz ismətlərini qoruyub saxlamaq qızlara nəsihət və vəsiyyət edilir. Bu xüsusda "Kitabi-Dədə Qorqud"da yazılmışdır: "Eyibli ərə getmək, eyibdir ər evinə" (2, 163).

Dədə Qorqud özünüöyməyi, lovğalanmağı, özünü kişisindən uca tutmağa can atmasını qadınlar üçün nöqsan sayır. Belə qənaətə gəlmək olur ki, qadının öz yeri, kişinin öz yeri olmalıdır. Öyünməklə qadın kişinin yerini tuta bilməz. "Kitabi-Dədə Qorquda" müraciət edək:
"Öyünərsə, ər öyünsün – aslandır,
Lovğalanmaq arvad üçün nöqsandır.
Öyünməklə arvaddan kişi olmaz" (2, 190).

Dastanda arvadlar dörd qrupa bölünür: "Birisi soysoldurandır; birisi toydoldurandır; birisi evin dayağıdır; birisi, necə deyəsən, bayağıdır" (2, 131).

Dədə Qorqud, təbii ki, evin dayağı olan qadınlara önəm verir. digər tip qadınları isə lənətləyir. Belə ki, soysolduran arvadlardan söz açılarkən bildirir ki, bu qadınlar yalnız özlərini düşünən olur, doyunca yeyib-içir, geyinib-keçinir, fəqət haqsız olaraq dolanışığından narazılıq edir, şikayətlənirlər.

Toydolduran arvadlar belə təsvir edilir: "Obanın o ucunu bu ucunu çarpışdırır, söz-şayiə yayır", bütün günü gəzib dolanır, evindən-eşiyindən xəbəri olmur, ona-buna qarğış deyir.

Dastanda ərinin sözünə qulaq asmayan, gələn qonağı layiqincə qarşılamayan, deyingən, arvadlar bayağı qadın kimi təqdim olunur. "Kitabi-Dədə Qorqud"da belələrinin "Huh peyğəmbərin eşşəyinin nəslindən" olduğu vurğulanar də deyilir: "Ocağınıza belə arvad gəlməsin!" (2, 139).

Dastanda insanlara müsbət keyfiyyətlərə yiyələnmələri, mənfi sifətlərdən uzaq olmaları məsləhət bilinir. Mənfi cəhətlər pislənir. Belə ki, təkəbbürlük, könlünü uca tutmaq kimi zərərli cəhətlər tənqid olunur. Bu xüsusda deyilir:

Təkəbbürlük eyləyəni tanrı sevməz,
Könlünü uca tutan adamda ağıl olmaz
(2, 129).

Dədə Qorqud düşmənlə son dərəcədə ehtiyatlı davranmağı lazım bilirdi. Düşmənin şirin dilinə aldanmağın insana acı nəticələr gətirəcəyini xatırladırdı "Qara düşmən dost olmaz").

Əsərdə qonaqpərvərlik müsbət cəhət kimi dəyərləndirilir. Elə ailələr, elə qadınlar vardır ki, evlərində qonaq qəbul etməyi xoşlamırlar. Qonağı bir abırda qarşılayırlar ki, gələn gəldiyinə peşman olur. Dədə Qorqud qonaqlı-qaralı olmayan evləri kəskin tənqid atəşinə tuturdu. Bu barədə əsərdə deyilir: "Qonağı gəlməyən böyük evlər yıxılsa yaxşıdır!" (2, 130).

Dastanda düzlük və doğruçuluq təqdir olunur ("Doğrucul adamlar yüz yaşasa yaxşıdır"), yalan pislənir, yalançı tənqid olunur. Yalanın bir çox bəlalara səbəb olduğunu bildirən Dədə Qorqud axırda belə bir qənaətə gəlir: "Yalan söz bu dünyada olunca, olmasa yaxşıdır" (2, 130).

Bədxahlıq, şər işlər, başqasına tor qurmaq, paxıllıq etmək, namərdlik yolunu tutmaq, adam aldatmaq və satmaq və s. dastanda pislənir. İgidləri ələ vermək, onları aldatmaq kişilikdən sayılmır. Bu xüsusda əsərdə oxuyuruq: "İgidi aldatmaq arvad işidir" (2, 222).

Dədə Qorqud özünü öyməyi kişi keyfiyyəti hesab etmirdi. Bu barədə onun mövqeyi belə idi: "Çox öyünən kişilərdə bir kişilik görmədim" (2, 215).

Düzgün qənaətdir. özünə vurulan, özünü öyən şəxs çox da irəli gedə bilmir.

Yuxarıda deyilənlərdən bir daha belə qənaətə gəlirik ki, "Kitabi-Dədə Qorqud" həqiqətən təhsilləndirici, tərbiyələndirici və inkişafetdirici imkanlara malikdir.

**Problemin aktuallığı.** "Kitabi-Dədə Qorqud"un tədqiqat obyekti kimi seçilməsi həmişə öz aktuallığını özündə saxlayacaqdır.

**Problemin yeniliyi.** "Kitabi-Dədə Qorqud"da tərbiyə məsələləri diqqət mərkəzinə gətirilir.

**Problemin praktik dəyəri.** Məqalə "Kitabi-Dədə Qorqud"da tərbiyə məsələlərini öyrənən doktorantlar, dissertantlar və magistrantlar üçün faydalı olacaqdır.

**Ədəbiyyat:**

1. Abbasov A.N. Pedaqogika: Orta ixtisas məktəbləri üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2013.
2. Kitabi-Dədə Qorqud. Bakı: Elm, 1989.

E-mail: amiraliyeva_i@mail.ru

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* A.N. Abbasov,
*ped.ü.fəls.dok.* L.A. Məmmədli
**Redaksiyaya daxil olub: 11.06.2018**